# Beşinci terror

## *2020-ci il oktyabrın 17-də Gəncə növbəti raket hücumuna məruz qaldı*

**Bu şəkillərə yaxşı-yaxşı baxın. 2020-ci il oktyabrın 17-də çəkilib. Ermənistan ərazisindən Gəncəyə 5-ci dəfə raket zərbələri endirildi. Əvvəlkilər kimi, gecə vaxtı, adamların yuxuda olduğu vaxt, saat 1-də atıldı. Beş aylıq körpəsinin cəsədini bağrına basıb hönkür-hönkür ağlayan ataya, evi-eşiyi viran qalan, amma yenə dağıntılar üstündə çarəsiz əyləşən şəhər sakininə, nalə çəkən analara, bacılara, körpələrə diqqət yetirin...**



Şəhərin Aida İmanquliyeva, keçmiş Muxtar Hacıyev küçəsi və Samir Xasıyev küçələridir. Əhalinin sıx yaşadığı bir ərazidir. Burada nə hərbi obyekt var, nə aerodrom, nə də silah anbarı. Ümumiyyətlə, Gəncədə Ermənistan tərəfinin həyasızcasına iddia etdiyi və bütün dünyaya yalan danışdığı bu fakt sonralar ifşa olundu. Amma nə olsun, o quldur basqınlarına özlərini dünyanın demokratik, humanist, ədalətli sayan bir sıra ölkələri vaxtında lazımınca reaksiya vermədilər. Hələ yaxşı ki, Prezidentimiz o 44 gün ərzində və ondan sonrakı dövrlərdə dünyanın ən müxtəlif kütləvi informasiya vasitələrinə müsahibələr verdi, çıxışlar etdi, görüşlər keçirdi və dünya ictimaiyyətinin diqqətini Azərbaycana yönəldərək, ermənilərin ənənəvi yalan mexanizmini darmadağın etməyi bacardı.

Əvvəldə ona görə “bu şəkillərə yaxşı-yaxşı baxın” dedim ki, bizim hər birimiz harada yaşamağımızdan asılı olmayaraq bu cinayət faktlarını dəlil-sübutlarla ortaya qoymağı bacarmalıyıq, öz vətəndaşlıq borcumuzu, az da olsa, yerinə yetirməliyik. Ermənilər olmayan genosiddən bir əsrdən çoxdur danışırlar. Bəs biz niyə bu dəhşətli terror əməllərindən lazımınca söhbət açmayaq?

…Həmin gecə Gəncəyə düşən raket zərbələri nəticəsində 15 nəfər həlak oldu, 50-dən çox şəxs müxtəlif dərəcəli bədən xəsarəti aldı, 15 fərdi yaşayış evi tamamilə dağıldı, 100-dən çox evə və ətrafdakı digər qeyri-yaşayış obyektlərinə, o cümlədən məktəb, idman obyektlərinə ciddi ziyan dəydi, nəqliyyat vasitələri yararsız hala düşdü...

Gəncə o gecə bir daha sınağa çəkildi. Sınaq xain, qorxaq düşmən sınağı da olsa, gəncəlilər dözüm, dəyanət, mərdlik, birlik göstərdilər.

Ermənilər də yandırıb-yaxan Gəncəni təşvişə sala bilməmələri idi. Amma şəhər nəinki yerində qaldı, adamlar nəinki heç yana getməyi belə düşünmədilər, əksinə, səmadan mərmilər yağa-yağa özlərini həmyerlilərinin yanına çatdırmağa tələsdilər.

**Bir neçə gün qabaq Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla iki il qabaq, oktyabrın 17-də şəhərdə Ermənistanın törətdiyi terror aktı və ondan əvvəlki raket hücumları ilə bağlı söhbət edirdim. Hiss etdim ki, o müdhiş gecələrdən danışmaq Niyazi müəllim üçün çox çətindir. Amma, gəncəlilərdən söz düşəndə sifəti işıqlandı:**

–Bilirsiniz, şəhərin rəhbəri hiss edəndə ki, o ağır məqamlarda tək deyil, arxasında böyük qüvvə var, o istənilən çətinliyi aradan qaldırmağı bacarır. Mən bu qüvvəni cənab Prezidentimizə arxalanaraq toplaya bilmişdim və bir daha əmin oldum ki, Azərbaycan vətəndaşının taleyi ölkə rəhbəri üçün daha önəmlidir və öndə dayanır. Tək heç nə edə bilməzdim. Bir də ki, gəncəlilərin mərdliyinə, birliyinə heyran qaldım. İnsanlar dağıntıların altına girirdilər. Evi dağılmış adamı az qala on nəfər zorla çəkib evinə aparmaq istəyirdi ki, “gedək, bizdə qal”. Xilas olmuş körpə uşaqlar qucaqdan-qucağa ötürülürdü. Adamlar qocaları, qadınları, məktəb yaşlıları əhatəyə almışdılar. Yemək gətirən kim, evindən isti paltar, hətta yorğan-döşək gətirən kim... Bütün şəhər gecədən səhərədək buradan getmədi...

İcra hakimiyyəti başçısının sözünə qüvvət, indinin özündə də şəhərdə qarşına çıxan istənilən sakini saxla və soruş ki, həmin gecə harada idin, yuxarıda adlarını çəkdiyim küçələri göstərəcək. Onlardan biri də raket zərbələrinin düşdüyü əraziyə yaxın yerdə yaşayan, uzun illərdir şəhərdə rus dilində çıxan “Novosti Qyandji” qəzetinin redaktoru işləyən İrina Kalaşnikovadır.

– Mən bu şəhərin sakinləri ilə fəxr edirəm, – deyir. Cəsur, mərd, mətin, prinsipial. Əsl insanda olan müsbət keyfiyyətlər gəncəlilərdə var. Vaxtilə bizim Gəncənin çörəyini yeyib, indi nankorluq edərək cəbhə bölgəsindən 80-100 kilometr aralıda yerləşən qədim bir şəhəri öz ərazilərindən raket atəşinə tutması ermənilərin hansı xislət sahibi olmalarını aydın göstərir. Həyat yoldaşım Valeh Hüseynov o zaman 29 saylı məktəbin direktoru idi. Məktəb raketin düşdüyü yerdən cəmi 150 metr aralıdadır. Partlayış olan kimi, ikimiz də heç nədən qorxub-çəkinmədən məktəbə sarı qaçdıq. Yaxınlaşanda dəhşətə gəldik. Məktəbin qapısı kökündən qopmuşdu. Qırılmayan pəncərə şüşəsi, yerindən çıxmayan çərçivə qalmamışdı. Səhərə qədər buradan tərpənmədik. Bütün valideynlər bura axışdı. Nə qorxu, nə təşviş-təlaş?! Bayaq dedim axı, bura Gəncədir, bura Azərbaycandır!

Övlad itkisi nədir, mən yaxşı bilirəm. Bir oğlum həlak olub. Həmin müddətdə ikinci oğlum ordu sıralarında idi. Nələr keçirirdim, bir Allah bilir. Amma biz qələbə qazandıq, torpaqlarımız azad olundu. Yadımdadır, Gəncəyə oktyabrın 17-si atılan raket zərbələri günü Füzuli işğaldan azad edildi. Əslində, bunları… (bu yerdə sözünə ara verib “heç onların adını belə çəkmək istəmirəm” – dedi - H.Q.) yandıran da 30 il işğalda saxladıqları torpaqların bir-bir əldən getməsi, cəbhədəki uğursuzluqları idi.

Jurnalist həmkarımın söylədikləri mənə o gecə yadımda qalan bir epizodu xatırlatdı. Qeyd etdim ki, minlərlə Gəncə sakini bir tərəfdən yaralılara, evləri dağılanlara kömək göstərmək, digər tərəfdən cəbhədən yeni xoş xəbərlər almaq üçün həmin gecə buradan getmək istəmirdilər, sonadək öz həmyerlilərinə dəstək olurdular. Amma ən böyük dəstək, düşmənə zərbə bilirsiniz nə idi? Şəhər sakinlərinin qətiyyən qorxmaması, mətin dayanması, heç bir təşvişə qapılmaması idi! Maykada olan bir cavan oğlanı dağıntılar altından çıxaran kimi bilirsiniz nə dedi: “And olsun Allaha, heç nədən qorxmuruq, inşallah, biz qalib gələcəyik, Qarabağ Azərbaycandır”. O da yadımdadır ki, Türkiyənin TV-100 kanalının müxbiri həmin anda ona yaxınlaşdı, verəcəyi sualı unudaraq kövrəldi və Gəncə sakininin cəsarətinə heyran qaldığını bildirərək “Keçmiş olsun, kardeşim”– deyib, tez də aralandı.

…Gəncə həmin gecə 15 nəfər günahsiz sakinini – körpə uşaqları, qadınları və qocalarını itirsə də, mənliyini, mətinliyini, yekdilliyini itirmədi. Bax, təkcə bu duruşu ilə düşmənə dərs verdi. Onlar bunu, yəqin ki, heç vaxt unuda bilməyəcəklər.





**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin**
**bölgə müxbiri**